AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# INFORMATION SECURITY AS AN IMPORTANT FACTOR IN THE REGIONAL POLICY OF THE REPUBLIC OF AZERBAIJAN (THE CASE OF THE SOUTH CAUCASUS REGION)

**Fatima Abdullayeva**[1]

**UDC:** 327:004.056(479.24)
**LBC:** 66.4(5Aze)-18
**HoS:** 103
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.146-155

**Keywords:**

South Caucasus,
Azerbaijan,
Russia,
the United States,
Information warfare

## ABSTRACT

Azerbaijan's victory in the 44-day Patriotic War and the one-day anti-terrorist operation can be considered not only a decisive event in the history of our statehood but also the beginning of a new stage in the history of the entire South Caucasus region. The resolution of the Nagorno-Karabakh conflict through military means served as practical confirmation of the effectiveness of hybrid warfare tactics and, at the same time, demonstrated the significance of strong information, diplomatic, and political measures in achieving success. The article analyzes the role of various factors in the historical context of the thirty-five-year struggle of Azerbaijani diplomacy on the informational and political fronts in the South Caucasus region and highlights the importance of the precedent set by resolving the Nagorno-Karabakh conflict through military and political means.

[1] PhD candidate, Department of International Relations, Faculty of International relations and economics, Baku State University; Baku, Azerbaijan
E-mail: mammadzade91@gmail.com
https://orcid.org/0000-0003-3325-3947
**To cite this article:** Abdullayeva, F. [2025]. Information Security as an Important Factor in the Regional Policy of the Republic of Azerbaijan (The Case of the South Caucasus Region). *History of Science journal*, *6*(4), pp.146-155.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.146-155

***Article history:***
*Received: 27.02.2025*
*Accepted: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ AZƏRBAYCAN RESPUBLİKASININ REGİON SİYASƏTİNDƏ MÜHÜM AMİLİ KİMİ (CƏNUBİ QAFQAZ REGİONUNUN TİMSALINDA)

**Fatimə Abdullayeva**[1]

**UOT:** 327:004.056(479.24)
**KBT:** 66.4(5Aze)-18
**HoS:** 103
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.146-155

**Açar sözlər:**

Cənubi Qafqaz,
Azərbaycan,
Rusiya,
ABŞ,
İnformasiya müharibəsi

## ANNOTASİYA

Azərbaycanın 44 günlük Vətən müharibəsi və bir sutkalıq antiterror əməliyyatında qələbəsi nəinki dövlətçiliyimizin, bütövlükdə Cənubi Qafqaz regionunun tarrixində taliyüklü hadisə və yeni mərhələnin başlanğıcı sayıla bilər. Dağlıq Qarabağ münaqişəsinin hərbi əməliyyatlar yolu ilə nizamlanması hibrid müharibə taktikasıının əməli təsdiqi olmaqla yanaşı, onun həyata keçirilməsində güclü informasiya və diplomatik-siyasi tədbirlərin əhəmiyyətinin göstəricisidir. Məqalədə Cənubi Qafqaz regionunun son otuz beş illik tarixi kontekstində Azərbaycan diplomatiyasının informasiya və siyasi səhnədə apardığı mübarizənin tarixi müxtəlif amillərin rolu araşdırılmaqla analiz edilir və Dağlıq Qarabağ münaqişəsinin hərbi/siyasi yollarla həllinin yaratdığı presedentin əhəmiyyəti göstərilir.

[1] Dissertant, Beynəlxalq münasibətlər kafedrası, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi, Bakı Dövlət Universiteti; Bakı, Azərbaycan
E-mail: mammadzade91@gmail.com
https://orcid.org/0000-0003-3325-3947
**Məqaləyə istinad:** Abdullayeva, F. [2025]. İnformasiya təhlükəsizliyi Azərbaycan Respublikasının region siyasətində mühüm amili kimi (Cənubi Qafqaz regionunun timsalında). *History of Science jurnalı*, *6*(4), səh.146-155.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.146-155

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 27.02.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 28.03.2025*
*Çapa qəbul edilmişdir: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ИНФОРМАЦИОННАЯ БЕЗОПАСНОСТЬ КАК ВАЖНЫЙ ФАКТОР В РЕГИОНАЛЬНОЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (НА ПРИМЕРЕ ЮЖНОГО КАВКАЗА)

**Фатима Абдуллаева**[1]

**УДК:** 327:004.056(479.24)
**ББК:** 66.4(5Азе)-18
**HoS:** 103
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.146-155

**Ключевые слова:**

Южный Кавказ,
Азербайджан,
Россия,
США,
Информационная война

## АННОТАЦИЯ

Победа Азербайджана в 44-дневной Отечественной войне и однодневной антитеррористической операции может рассматриваться не только как судьбоносное событие в истории нашего государства, но и как начало нового этапа в истории всего Южного Кавказа. Урегулирование нагорно-карабахского конфликта военным путём стало не только практическим подтверждением эффективности тактики гибридной войны, но и продемонстрировало значимость мощных информационных, дипломатических и политических мер, применённых в ходе её реализации. В статье анализируется роль различных факторов в историческом контексте тридцатипятилетней борьбы Азербайджанской дипломатии на информационной и политической арене в регионе Южного Кавказа, а также подчёркивается значение прецедента, созданного решением нагорно-карабахского конфликта военными и политическими средствами.

[1] Диссертант, Кафедра международных отношений, Факультет международных отношений и экономики, Бакинский государственный университет; Баку, Азербайджан
E-mail: mammadzade91@gmail.com
https://orcid.org/0000-0003-3325-3947
**Цитировать статью:** Абдуллаева, Ф. [2025]. Информационная безопасность как важный фактор в региональной политике Азербайджанской Республики (на примере Южного Кавказа). *Журнал History of Science*, *6*(4), с.146-155.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.146-155

***История статьи:***
*Статья поступила в редакцию: 27.02.2025*
*Отправлена на доработку: 28.03.2025*
*Принята для печати: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

XX yüzilliyin sonlarında baş verməkdə olan qlobal sarsıntılar informasiya sahəsində əvvəllər görünməmiş dəyişiklik və yeniliklərə meydan yaratdı və Cənubi Qafqazın tarixində epoxal xarakterli dönüşə gətirib çıxardı. Məhz bunun nəticəsində Azərbaycan Respublikası dövlət müstəqilliyi yoluna daxil oldu, 1993-cü ilin ortalarında Ümummilli Lider H. Əliyev yenidən böyük siyasətə qayıtdıqdan sonra ölkədə yaradılmış sabitlik vahid informasiya siyasətinin formalaşması və təhlükəsizliyinin təminatı sahəsində ciddi yeniliklərə imza atılmasına imkan verdi, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının yaradılması və beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində əsaslı tədbirlər həyata keçirildi. KİV qanunvericiliyi sahəsində xüsusi əhəmiyyətə malik hüquqi sənədlərdən biri də 1995-ci il noyabrın 12-də qəbul olunmuş, sonralar isə bir sıra əlavə və dəyişikliklər edilmiş Azərbaycan Respublikasının Konstitusiyasıdır. Bu sənəd vətəndaşlar üçün hüquq, vəzifə və məsuliyyətlər məcmusu kimi önəmli keyfiyyətləri özündə daşımaqla bərabər, jurnalistlik fəaliyyətini tənzimləyən digər qanunvericilik aktlarının da əsasında durur. Konstitusiyanın mətbuat üçün dayaq nöqtəsi ola biləcək 47-ci, 50-ci və 51-ci maddələri "Əsas hüquq və azadlıqlar" bölməsinə daxil edilmişdir. Qanunun 47-ci maddəsində fikir və söz azadlığından, 50-ci maddəsində isə məlumat azadlığından bəhs olunur. Burada deyilir: kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır. Qanunun 51-ci maddəsi isə müstəqil Azərbaycan dövləti vətəndaşlarının yaradiciliq azadlığı haqqındadır, dövlət ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verirdi [Azərnəşr, 2012].

## 2.İnformasiya siyasətinin əsasları

Məhz buna görə də, Ümummilli Lider H. Əliyevin ölkəmizdə dövlət quruculuğu strategiyasında informasiya siyasəti xüsusi yer tuturdu. Onun 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanina əsasən mətbuatda və digər kütləvi informasiya vasitələrində Dövlət Sirlərini Mühafizə Baş İdarəsi ləğv edilir, bununla da mətbuat üzərində illər boyu mövcud olan senzura sistemi aradan qaldırılırdı. Təsadüfi deyildi ki, qəbul edilmiş qanunlar və digər dövlət sənədləri müxtəlif daxili və xarici informasiya vasitələrində demokratik ənənələrin və vətəndaş cəmiyyətinin formalaşmasinda əhəmiyyətli hadisələr kimi dəyərləndirilirdi [Yeni Azərbaycan, 2018].

Ölkəmizin ictimai-siyasi inkişafında mühüm rol oynayan həmin sənədlərin qəbulu və fəaliyyətinə start verilməsi ümumi informasiya siyasətinin hazırlanması və həyata keçirilməsində böyük rol oynamaqla Azərbaycanda informasiya təhlükəsizliyi strategiyasının hazırlanmasına zəmin yaratdı. Tədqiqatçılara görə, informasiya təhlükəsizliyi informasiya müharibəsi şəraitində istifadə olunan vasitələrdən asılı olmayaraq öz informasiya funksiyalarımızı qorumaq üçün görülən hər hansı bir tədbir kimi əhəmiyyətlidir. Şəbəkələri hər hansı hücuma qarşı gücləndirmək və müdafiə etmək də informasiya müharibəsinin bir hissəsidir. Eyni münasibət şəbəkə proqramını qoruyan antivirus proqramlarına da aiddir. İnformasiya müharibəsi yalnız bir vasitədir, məqsəd deyil, informasiya müharibəsi strateji hücuma qarşı mübarizə vasitəsi kimi istifadə edilə bilər [Ekspress qəzeti, 2013].

Dövlət müstəqilliyinin ilk günlərindən düşmən kütləvi informasiya vasitələrinin hədəfində olan, informasiya və siyasi-iqtisadi blokadada olan Azərbaycanın informasiya təhlükəsizliyinin təmin edilməsinə ciddi ehtiyacı var idi. Məlum olduğu kimi, informasiya müharibələrində ən güclü silah informasiya və dezinformasiyadır ki, qarşidurma zamanı tərəflər öz ölkəsinin məlumat infrastrukturunu qoruyaraq, düşmən tərəfin informasiya sistemlərini, məlumat mənbələrini və məlumat infrastrukturunu məhv etməyə çalışırlar. İnformasiya müharibəsi düşüncələrdə aparıldığından müharibə qədər qorxuludur [Xalq qəzeti, 2020], buna görə də problemə kompleks münasibət bəslənilməlidir, yalnız bu yolla

Ermənistanın və onu dəstəkləyən qüvvələrin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ətrafında yaratdıqları informasiya blokadasını yarmaq, ölkəmizlə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqla haqlı olduğumuzu bildirmək mümkün idi.

Ötən əsrin 90-cı illərindən etibarən Cənubi Qafqaz və Orta Asiya ölkələrinin beynəlxalq münasibətlərin diqqət mərkəzinə çevrilməsi, region ölkələrinə münasibətdə çeşidli layihələrin işıq üzü görməsi təsadüfi hadisə deyildi. Belə ki, uzun illər sovetlər birliyinin tərkibində olan bu dövlətlər siyasi müstəqillik və milli özünüdərkin möhkəmlənməsi prosesi yoluna qədəm qoyduqdan sonra dünyanın böyük gücləri bu nəhəng strateji məkanı öz nüfuz dairəsinə çevirmək üçün gərgin və güzəştsiz mübarizəyə başlamış, nəticədə region hədə və qarşıdurma meydanına çevrilmişdi. Neft və qaz, kəmərlər, investisiya, təbii ehtiyatlar, ticarət-strateji mövqe, həm də regional münaqişələr, separatçılıq, terrorizm, fundamentalizm, narkotik vasitələrin leqal daşınması, miqrasiya, insan hüquqlarının pozulması, ətraf mühit, xarici aktorların artan rəqabəti, Gürcüstan və Azərbaycanın müharibə meydanına çevrilməsi, Orta Asiya ölkələri arasında ərazi-sərhəd münaqişələri, təbii fəlakətlər, Xəzər dənizinin statusu məsələsi, və s. kimi əlamətlər Cənubi Qafqaz və Orta Asiya regionlarını xarakterizə edən başlıca hadisələr idi. Qərb müəllifləri yaranmış xaosu tufandan sonrakı vəziyyətə bənzədirdilər [NATO Int., 2001]. Bu regionlar dünyanın bütün kütləvi informasiya vasitələrinin diqqət mərkəzində idi.

O dövrkü politoloji fikirin, xüsusilə KİV-in Avrasiya regionuna belə həssas münasibəti onun zəngin enerji ehtiyatları, insan resursları, geostrateji mövqeyi və loqistik əhəmiyyəti ilə bağlı idi. Qərb analitik mərkəzləri tarixi Böyük İpək Yolunun keçdiyi və hazırda Avropa-Asiya nəqliyyat dəhlizi (TRASEKA) kimi fəaliyyət göstərməkdə olan Cənubi Qafqazın yeri, rolu və perspektivlərini obyektiv qiymətləndirirdilər. Regionun Aİ-nin diqqət mərkəzində duran başlıca hədəfə çevrilməsi ittifaqın enerji diversifikasiyası strategiyasında mühüm yer alması ilə bağlı idi. Qeyd edək ki, nəinki Azərbaycan neftinin, habelə Orta Asiya ölkələrinin enerji və xammalının nəqli və dünya bazarlarına çıxmasında bu dəhlizin rolu xüsusi əhəmiyyətə malik idi. Məhz bu kontekstdə Avropa İttifaqının xarici əlaqələrində Rusiya, Türkiyə, Çin, İran, Pakistan və Hindistanla yanaşı Azərbaycana da xüsusi önəm verilirdi. Xəzər dənizindəki enerji ehtiyatlarının gələcək istismarı bu subregionun enerji təminatçısı və tranzit zona kimi rolunu daha da artırırdı. Rusiyanın və İranın ciddi müqavimətinə baxmayaraq A. Keskin, C. Yavuz, B. Buzan, C. Nay, H. Kisencer, Z. Bjezinski kimi müəlliflər Qərb-Şərq, Şimal-Cənub vektorkarının kəsişmə yeri olan Cənubi Qafqaz uğrunda geosiyasi güclərin mübarizəsinin daha da kəskinləşəcəyi anonsunu verirdilər [NATO Int., 2001].

### 3.Cənubi Qafqazda geosiyasi mübarizə

Azərbaycanlı müəlliflərdən M.Əliyev Cənubi Qafqaz regionunun beynəlxalq aləmdə və dünya siyasət müstəvisində əhəmiyyətindən bəhs edərək yazırdı ki, ABŞ Dövlət Departamentinin 1994-cü ildə hazırladığı "Qafqaz regionu" xəritəsi, 1997-ci ildə nəşr olunan Yeni əsr üçün Milli Təhlükəsizlik Strategiyası, Rusiya da daxil olmaqla dünyanın aparıcı dövlətlərinin sərgilədiyi mövqelər də sübut edir ki, region dünyanın siyasi xəritəsində xüsusi mövqeyə malikdir. Bir sözlə, Cənubi Qafqaz siyasi, strateji, tarixi və sosioloji aspektləri ilə son dərəcə mühüm regiondur [Mod.gov.az, 2021]. Dünyanın azman dövlətləri iki yüz ilə yaxın üzlərinə qapalı olan bu strateji regionda nüfuz qazanmaq, pay əldə etmək uğrunda kifayət qədər gərgin keçən geosiyasi rəqabət mübarizəsinə başlamışdılar.

Qeyd edək ki, Cənubi Qafqazın iki yüz ilə yaxın dövr ərzində, daha dəqiq 1836-cı ildən etibarən beynəlxalq aləmə qapanması dünya siyasəti üçün mifik təsəvvürlər formalaşdırmışdı. Belə ki, bu region XIX əsrin əvvəllərindən etibarən əvvəlcə çar Rusiyasının, XX əsrin 20-ci illərindən SSRİ-nin, keçən əsrin 90-cı illərindən isə Rusiya Federasiyasının nüfuza altında olması Qərbin Şərq dünyası ilə bağlı bir sıra planlarının

bloklanmasına gətirib çıxarmışdı. Göründüyü kimi, göstərilən dövrdə Rusiya faktoru həmişə mühüm rol oynamışdı. SSRİ-nin süqutundan sonra Cənubi Qafqaz xaotik şəkildə baş verən geosiyasi mübarizə meydanına çevrilmişdi. Milli politoloji fikrə görə, regionda qlobal geosiyasi güclərin mübarizəsi tədricən daha amansız forma almağa başlamışdı. Dağlıq Qarabağ, Cənubi Osetiya və Abxaziya münaqişələri regional təhlükəsizliyə ciddi təhdidə çevrilməklə maraqlı güclərin əlində region dövlətlərinə təzyiq alətinə çevrilmişdi. Belə ki, böyük geosiyasi güclərin - ABŞ, Avropa İttifaqı və Rusiyanın, region dövlətlərinə qarşı heç də birmənalı qiymətləndirilməyən mövqe sərgiləməsi, Qərb dövlətlərinin xristian Ermənistanını daim haqlı, müsəlman Azərbaycanını isə daim haqsız təqdim etməyə çalışması, Rusiyanın bu məsələdə daha tarazlı mövqe sərgiləməsi - bütün bu amillərin kompleksi Cənubi Qafqazı qlobal geosiyasətin ən həssas məkanlarından birinə çevirmişdi. [Xalq qəzeti, 2021]. Bu Cənubi Qafqazın sivilizasiyaların toqquşduğu məkana çevrildiyinin göstəricisi idi.

Bu baxımdan münaqişə və qarşıdurma xəttinin Cənubi Qafqazdan keçməsi dünyanın super güclərinə, ilk növbədə ABŞ və Rusiyaya regionu bütövlükdə nəzarətdə saxlamağa imkan verirdi, lakin Azərbaycan ordusunun 44 günlük Vətən müharibəsində və 23 saat 43 dəqiqəlik antiterror əməliyyatında qələbəsi bu fürsəti regionu xaotik vəziyyətdə saxlamağı davam etdirən güclərin əlindən aldı. Regionda başlıca münaqişə ocağının aradan qaldırılması həm də Azərbaycanın informasıya müharibəsində qələbəsi idi, regional təhlükəsizlikdə yeni qüvvələr balansının yaradılması demək idi.

Yaranmış şəraitdə Azərbaycanın regionun geosiyasi mərkəzi olaraq müasir dünya siyasətinin diqqət mərkəzinə çıxması təbii idi. Vaxrı ilə ABŞ politoloqu Z.Bjezinski geosiyasi mərkəz anlayışını xarakterizə edərək yazırdı: "Geosiyasi mərkəz o dövlətdir ki, onun əhəmiyyəti oz gücü və motivasiyasından yox, mühüm yerləşmə mövqeyindən və geostrateji iştirakçı şəxslər tərəfindən edilən hərəkətlərin doğura biləcəyi nəticələrdən asılıdır və coğrafi yerləşməsi ilə bağlıdır. Geosiyasi mərkəzlər geosiyasi meydanda həyati əhəmiyyət kəsb edən dövlət və ya hətta region üçün qoruyucu sipər kimi çıxış edə bilər. Soyuq müharibə başa çatdıqdan sonra aparıcı Avrasiya geosiyasi mərkəzlərin müdafiəsi ABŞ-ın qlobal geostrategiyasının prinsipial aspektləri sırasındadır. Bu mənada Ukrayna, Azərbaycan, Cənubi Koreya, Türkiyə və İran vacib geostrateji mərkəzlər rolunu oynayırlar [Бжезинский, 1999]. Qeyd edək ki, göstərilənlər hansı isə politoloqun təxəyyülünün məhsulu deyildi, super gücün reallaşdırılmağa köklənən strateji hədəfləri idi.

## 4.Azərbaycan, Rusiya və Türkiyə arasında çoxvektorlu siyasət

Bununla belə, Cənubi Qafqaz dövlətlərinin Rusiya ilə sıx əməkdaşlığı SSRİ-nin dağılmasından sonra da davam edirdi və görünən o idi ki, Rusiya bu regiondan nəinki çəkilməyəcəkdir, hətta mövqelərini mohkəmləndirmək üçün bütün vasitələrdən istifadə edəcəkdir. Bununla yanaşı, Azərbaycan da daxili sabitliyə nail olduqdan sonra çoxvektorl xarici siyasət xətti yürütməyə başlamışdı, rəsmi və qeyri-rəsmi Rusiya KİV-ləri, politoloqlar və dövlət rəsmiləri rəsmi Bakının xeyli mürəkkəb xarici siyasət xətti yürütdüyünü, bunun getdikcə kifayət qədər aydın göründüyünü qeyd edirdilər. Politoloq A.Duginə görə, Azərbaycan Türkiyəyə arxalanmaqla yanaşı, indi Rusiya ilə daha geniş əməkdaşlığa başlamaq, habelə daha tarazlı siyasət yeritmək niyyətindədir. Müəllifə görə, coğrafi mövqeyini və enerji resurslarını diplomatiyaya çevirən Bakı Cənubi Qafqazda yeni geosiyasi vəziyyətin yaranmasına və dəyişməsinə səbəb olacaq qərarlar verməyi planlaşdırır və bunu gizlətmir də. [Дугин, 2000]. Belə ki, Azərbaycanın Dağlıq Qarabağa nəzarət uğrunda Ermənistanla qarşıdurmasında Türkiyədən ciddi dəstək aldığı məlumdur, bu eyni zamanda Ankaranın yaranmış vəziyyətdən istifadə edərək Azərbaycan üzərində geosiyasi təsirini artırmaqda olduğunun göstəricisidir ki, zaman keçdikcə, region dövlətlərində nüfuz və mövqe qazanmaq uğrunda mübarizənin daha da kəskinləşəcəyini göstərir. Hələ yeni yüzilliyin başlanğıcında rusiyalı müəlliflərdən T. A. Şakleina yeni dünya qaydasının

formalaşdırılması uğrunda mübarizədə Rusiya və ABŞ-ın hədəflərindən bəhs edərkən Yaxın Şərq regionu ilə yanaşı, Cənubi Qafqaz və Orta Asiya regionlarını da diqqətdə saxlamış, geosiyasi rəqabətin nə ilə nəticələnəcəyini region ölkələrinin mövqeləri ilə bağlamışdı [Шаклеина, 2002]. Rusiyalı müəlliflər regionda getməkdə olan geosiyasi mübarizədə Rusiyanın ən güclü rəqibləri sırasında Türkiyənin olduğunu da etiraf etməyə məcbur olmuşdular. Türkiyə diplomatiyası bu regionda ABŞ/Rusiya qarşıdurması şəraitində geniş manevr imkanlarına malik idi və bunu məharətlə həyata keçirirdi. Yeni əsrin 10-cu illərində Yaxın Şərqdə fəal aktor kimi çıxış edən Türkiyə özünü Cənubi Qafqazda da real aktor kimi göstərməkdə idi. Regionun qonşuluğunda olması Ankaraya bir növ fəaliyyət azadlığı vermişdi və ABŞ yaranmış vəziyyətdə Türkiyəyə diplomatik yollarla ciddi dəstək verirdi [Малышева, 2012].

Postsovet məkanının ətrafında və daxilində gedən mübarizə xarici və daxili amillərin təsiri altında idi. Hələ müstəqilliyin ilk illərində Türkiyənin Cənubi Qafqazda zəif olduğu dövrdə də Azərbaycan ciddi dəstəyi Türkiyədən gözləyirdi, baxmayaraq ki, bunun çətinliyi göz önündə idi. A.D.Şutov nə Rusiya, nə İran, nə də Türkiyənin Qafqazda müharibəyə imkan verməkdə maraqlı olmadıqlarını xüsusi olaraq qeyd edir, buna həmin dövlətlərin imkan verməyəcəyini bildirir, bu dövlətlərin Cənubi Qafqaza yeni oyunçuların lazım olmadığı barədə mövqelərinin qəti olduğunu diqqətə çatdırırdı [Шутов, 1999]. Yaranmış vəziyyətdə Yerevanın odla oynadığını qeyd edən F. Səmədov Bakının heç kimdən asılı olmayan çoxşaxəli düzgün siyasət yeritdiyinin, bunun ölkə və region üçün əhəmiyyətini çox böyük olduğunu diqqətə çatdırırdı. Müəllifin Azərbaycan Rusiya, Pakistan, İsrail, Türkiyə və Belarusun dostudur, habelə Mərkəzi Asiya Əliyevin müttəfiqi və dostudur - fikri obyektiv reallığa istinad edirdi. İmzalanmış müqavilələr çərçivəsində Əliyevin bu çətin zamanda ölkəyə uğurla rəhbərlik etməsi bir sıra problemləri önləməyə imkan verirdi. Gürcüstanla yaxın münasibətlərə malik olan Bakının yalnız İranla molla rejiminin mövcud olduğu dövrdə əməkdaşlığı isə hələlik salamlaşmaqdan uzağa getmir [Dzen.ru, 2024].

Milli kütləvi informasiya vasitələrində, xüsusilə mətbuat və internet saytlarında yer alan materiallarda Rusiyanın postsovet məkanı və dünya siyasətinin konturları ciddi şəkildə müzakirə edilir, bu dövlətin imperiya təfəkkürlü olmasının dəyişmədiyi xüsusi qeyd edilirdi. Belə ki, politoloqlara görə, Moskva sovet dövründəki kimi, "hökumətləri idarə etmək, hərbi bazaları bərpa etmək, dəniz marşrutlarını açmaq və ixracatı genişləndirmək" siyasətinə sadiq idi. Bu siyasət isə öz növbəsində Rusiyanın təsirin artmasına və genişlənməsinə hədəflənməklə daha dəqiq desək, XIX əsrin strateji rəqabət şəraitinə geri dönməni ifadə edir, "regional balansda daha geniş əhatə"ni nəzərdə tuturdu. Məhz buna görə də Cənubi Qafqaz/Mərkəzi Asiya arealında "Amerikanın nüfuzunun gələcəyi haqqında" sual kəskin şəkildə qoyulmaqda və müzakirə olunmaqda idi. Politoloqlar qədim dövrlərdən bəriyə doğru Rusiyanın "hər zaman genişlənən imperiya" statusuna malik olduğunu və dəyişmədiyini qeyd edirdilər [Ordu.az, 2017].

Qeyd edək ki, soyuq müharibənin xüsusilə şiddətli olduğu keçən əsrin 50-60-cı illərindən fərqli olaraq hazırda Rusiya Yaxın Şərq ölkələrinə siyasi baxımdan eyni məsafədə dayansa da, bunu MDB məkanının cənubuna, xüsusilə Cənubi Qafqaza aid etmək olmaz, çünki postsoyuq müharibə dövründə, daha dəqiq desək 1990-2000-ci illərdə ölkənin həm daxilində, həm də xaricində siyasi və iqtisadi böhranla üzləşən Rusiya Yaxın Şərqdə uzun zaman müttəfiqi olmuş Misir, İraq və Suriyanı tərk etməklə Misir və İraqın ABŞ-a yaxınlaşmasına yol açmışdı. Daxildə stabilliyi tam təmin etdikdən sonra dünya bazarında da neft və təbii qazın qiymətinin qalxmasıyla əldə edilən böyük gəlirlər nəticəsində, xüsusilə də 2010-cu ildən yenidən Yaxın Şərq ölkələri ilə əlaqələrini gücləndirərək, regionda qlobal güc rolunu oynamağa başlamışdı. Rusiyanın Yaxın Şərq strategiyasının hazırda təməl prinsipləri iqtisadi maraqlar, regionda ABŞ təsirini azaltmaq və region ölkələri arasındakı siyasi-hərbi balansın kəskin şəkildə pozulmamasını təmin etməyə çalışmaqdır

[Aqreqator.az, 2020]. Yaranmış yeni geosiyasi şəraitdə Rusiyanın başlıca məqsədi ilk növbədə İranla eyni mövqedən çıxış etməklə Qərbin, xüsusilə ABŞ-ın Cənubi Qafqazı öz nüfuzu altına almasına imkan verməməkdir.

Yeni əsrin 20-ci iillərinə qədər Rusiyanın cənub istiqamətindəki geosiyasi fəaliyyətinin mühüm tərəflərindən biri azərbaycanlı politoloqlardan Ə.İbrahimovun qeyd etdiyi kimi, Moskvanın ABŞ-ın gücünü tarazlaşdırmaq istəyidir ki, bu əslində nüfuz dairələrinin bölünməsi anlamına gəlir. Halbuki amerikalı politoloq C. Fridman Vaşinqtonun Rusiyanın maraqlarını nəzərə almadan bu ölkənin qonşuluğundakı regionlara nüfuz etdiyini, Gürcüstan kimi Rusiyaya qarşı yönəlmiş ölkələri dəstəkləməyə çalışdığını diqqətə çatdırırdı. Azərbaycanlı müəllifə görə isə Rusiya göstərilən dövrdə ABŞ-ı passiv vəziyyətinə salmaqla bu regiondakı nüfuzunu artırmaqda, İran, Suriya və Fələstin kimi ölkələrlə əlaqələrini gücləndirməkdə və ABŞ-ın Yaxın Şərqdəki ənənəvi müttəfiqləri olan Misir, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və İordaniya ilə yaxınlaşmaqda idi [İbrahimov, 2022]. Doğrudur, sonrakı hadisələr, xüsusilə Suriya prezidenti B.Əsədin hakimiyyətdən salınması, İsrail-Həmas müharibəsi, İranın İsrail tərəfindən vurulması, Türkiyənin Suriya və Livan istiqamətində fəallaşması ABŞ-ın Avroasiya mövqelərinin hələ güclü olduğunu göstərdi, Zəngəzur dəhlizi layihəsinin "Tramp layihəsi" adlandırılması, Rusiya-Azərbaycan münasibətlərində pisliyə doğru kəskin dönüş edilməsi Vaşinqtonun Cənubi Qafqaı əldən verməyəcəyinin göstəricisi idi.

Müasir dünyada gedən informasiya müharibəsində geosiyasi amillərlə yanaşı, ölkənin beynəlxalq əlaqələrinin, təbii sərvətləri, xüsusilə enerji ehtiyatlarının əhəmiyyəti və rolu kütləvi informasiya vasitələrinin həmişə diqqətində və nəzarətində olmuşdur və olaraq qalır. Xəzər dənizinin neft/qaz ehtiyatlarının istehsalı və dünya bazarlarıına çıxarılması yolları ilə bağlı indiyədək yüzlərlə monoqrafiyalar yazılmış, dünyanın müxtəlif informasiya kanallarında və KİV-lərdə minlərlə məlumatlar, fakt və materiallar yayımlanmışdır. Tədqiqatçılar məhz enerji ammili ilə bağlı dünyada "böyük oyunların" başlamasına diqqəti yönəltmiş, bu mübarizənin gedişi, nəticələri və perspektivlərinin ağır olacağına xüsusi yer vermişdilər ki [Казанцев, 2008], Azərbaycanın enerji resurslarına münasibət də bu qəbildəndir. Politoloq Z.Bzezinskinin Xəzərin enerji resurslarını obrazlı şəkildə "ağzı bağlı şüşə qaba" bənzətməsi təsadüfi deyildi [Бжезинский, 1999].

Milli, Qərb, Rusiya, Türkiyə, İran kütləvi informasiya vasitələrində, çoxsaylı tədqiqatlarda Xəzər nefti ətrafında gedən mübarizə Cənubi Qafqaz regionunda baş verən demək olar ki, bütün hadisələrlə, etnosiyasi münaqişə, qarşıdurma və lokal xarakterli müharibələrlə əlaqələndirilirdi [Наринский, Мальгина & Навона, 2005]. 1994-cü il dentyabrın 20-də dünyanın on nəhəng neft kompaniyaları ilə Azərbaycan arasında "Əsrin müqaviləsi"nin imzalanması, 2017-ci il sentyabrın 14-də "Yeni Əsrin müqaviləsi"nə start verilməsi, Bakı-Novorossiysk və Bakı-Tbilisi-Ceyhan neft ixrac kəmərlərinin işə salınması Cənubi Qafqaz regionunda nisbi sabitliyin yaradılmasına müsbət təsir göstərmiş oldu. Hazırda regional diplomatiyada və informasiya siyasətində başlıca məqsəd yaranmış sabitlik və regional təhlükəsizliyə davamlı xarakter verməkdir.

## 5.Nəticə

Ümumiyyətlə, Azərbaycanın informasiya və hərbi/diplomatik sahələrdə tarixi qələbəsindən sonra ilk növbədə ABŞ, Fransa və Rusiya Cənubi Qafqazdakı fəaliyyətlərinə düzəliş etməyə məcburdurlar, əgər bunu etməsələr onların burada öz nüfuzlarını qoruyub saxlaması ciddi risk altında qala bilər. Regiondakı münaqişələrin həllinə ədalətli və obyektiv yanaşmaqdan başqa yol qalmayıb. Azərbaycan Prezidenti İlham Əliyevin siyasi-diplomatik, informasiya və hərbi sahələrdə qətiyyəti nəinki təcavüzkarı çıxılmaz vəziyyətə saldı, habelə dünyanın böyük güclərini də geri çəkilməyə məcbur etdi. Bu bağlılıqda Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VII qurultayındakı çıxışında ifadə etdiyi aşağıdakı fikirlər həmin məqamı dolğun əks etdirir: "Bu gün yeni bir vəziyyət yaranıb, bu vəziyyəti

biz yaratmışıq. Biz reallıqlar yaradan ölkəyik və bundan əvvəlki dövrlərdə də bizim təşəbbüsümüzlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirib, əməkdaşlığın yeni formatlarını şərtləndirmişdir" [Oxu.az, 2001].

## 6.REFERENCES


1. Azerneshr. (2012). *Constitution of the Republic of Azerbaijan.* (in Azerbaijani)
2. Yeni Azerbaijan. (2018, August 7). *Abolition of censorship in Azerbaijan created a major turning point in the development of the national press.* Retrieved from https://www.yeniazerbaycan.com/Siyaset_e42553_az.html (in Azerbaijani)
3. Xalq newspaper. (2021, March 14). *South Caucasus: new geopolitical configuration and Azerbaijan's leadership.* Retrieved from https://anl.az/down/meqale/xalqqazeti/2021/mart/738263(meqale).pdf (in Azerbaijani)
4. Ibrahimov, A. (2022, January 13). *The role of the Middle East region in Iran-Russia relations.* Retrieved from http://www.geostrategiya.az/news.php?id=198 (in Azerbaijani)
5. Oxu.az. (2021, March 5). *Ilham Aliyev's speech at the 7th Congress of the New Azerbaijan Party – full text.* Retrieved from https://oxu.az/siyaset/ilham-eliyevin-yap-in-qurultayinda-cixisi-tam-metn-yenilenibfoto (in Azerbaijani)
6. Ekspress newspaper. (2013, March 7). *Information war; are we winning or losing?!* (in Azerbaijani)
7. Xalq newspaper. (2020, October 17). *Information war: purpose and objectives.* (in Azerbaijani)
8. Ordu.az. (2017, December 22). *What is the Middle East for Russia: success or trap? – Analysis.* Retrieved from https://ordu.az/az/news/124421/ (in Azerbaijani)
9. Aqreqator.az. (2020, January 25). *Russia's "Distance" policy in the Middle East – Analysis.* Retrieved from https://aqreqator.az/az/siyaset/3431439 (in Azerbaijani)
10. Mod.gov.az. (2021, December 1). *New geopolitical realities created by the Patriotic War in the region.* Retrieved from https://mod.gov.az/az/pre/38565.html (in Azerbaijani)
11. Brzezinski, Z. (1999). *The grand chessboard: American primacy and its geostrategic imperatives.* Moscow: Mezhdunarodnye otnosheniya, 256 p. (in Russian)
12. Dugin, A. (2000). *Foundations of geopolitics: The geopolitical future of Russia. Thinking in space.* (4th ed.). Moscow: Arktogeya Center, 928 p. (in Russian)
13. Dzen.ru. (2024, April 25). *Geopolitical situation around Azerbaijan.* Retrieved from https://dzen.ru/a/ZipTUYVZwj8v1GkV (in Russian)
14. Kazantsev, A. (2008). *"The great game" with unknown rules: world politics and Central Asia* (2nd ed.). Moscow: MGIMO-University; Heritage of Eurasia. (in Russian)
15. Malysheva, D. (2012). *The new Middle Eastern strategy of Turkey. Russia and the Muslim world.* Retrieved from https://cyberleninka.ru/article/n/novaya-blizhnevostochnaya-strategiya-turtsii (in Russian)
16. Shakleina, T. (2002). *Russia and the USA in the new world order: Discussions in political and academic communities of Russia and the USA (1991–2002).* Moscow: Institute for the USA and Canada Studies, Russian Academy of Sciences, 445 p. Retrieved from http://www.obraforum.ru/shakleina/RandUS-intro.pdf (in Russian)
17. Shutov, D. (1999). *Post-Soviet space.* Moscow: Diplomatic Academy of the Ministry of Foreign Affairs of Russia, Institute of Current International Problems; Nauchnaya kniga, 250 p. Retrieved from https://rusneb.ru/catalog/000199_000009_000737269/ (in Russian)
18. Narinskiy, M., Malgina, A., & Navona, M. (2005). *Southern flank of the CIS. Central Asia – Caspian – Caucasus: opportunities and challenges for Russia.* 370 p. Retrieved from https://s.eruditor.one/file/235135/ (in Russian)

**19.** NATO. (2001). *Caucasus and Central Asia: The Eurasian region – towards a more comprehensive EU policy*. Retrieved from https://www.nato.int/docu/colloq/2001 (in English)

## ƏDƏBİYYAT

**1.** Azərnəşr. (2012). *Azərbaycan Respublikasının Konstitusiyası.*
**2.** Yeni Azərbaycan. (2018, 7 avqust). *Azərbaycanda senzuranın ləğvi milli mətbuatın inkişafında əsaslı dönüş yaratdı.* Əldə edildi: https://www.yeniazerbaycan.com/Siyaset_e42553_az.html
**3.** Xalq qəzeti. (2021, 14 mart). *Cənubi Qafqaz: yeni geosiyasi konfiqurasiya və Azərbaycanın liderliyi.* Əldə edildi: https://anl.az/down/meqale/xalqqazeti/2021/mart/738263(meqale).pdf
**4.** İbrahimov, Ə. (2022, 13 yanvar). *İran-Rusiya münasibətlərində Yaxın Şərq regionunun rolu*. Əldə edildi: http://www.geostrategiya.az/news.php?id=198
**5.** Oxu.az. (2021, 5 mart). *İlham Əliyevin YAP-ın VII qurultayında çıxışı - tam mətn.* Əldə edildi: https://oxu.az/siyaset/ilham-eliyevin-yap-in-qurultayinda-cixisi-tam-metn-yenilenibfoto
**6.** Ekspress qəzeti. (2013, 7 mart). *İnformasiya müharibəsi; uduruq, uduzuruq?!*
**7.** Xalq qəzeti. (2020, 17 oktyabr). *İnformasiya müharibəsi: məqsəd və hədəflər.*
**8.** Ordu.az. (2017, 22 dekabr). *Rusiya üçün Yaxın Şərq nədir: Müvəffəqiyyət, yoxsa tələ? – Analiz*. Əldə edildi: https://ordu.az/az/news/124421/
**9.** Aqreqator.az. (2020, 25 yanvar). *Rusiyanın Yaxın Şərqdə "Məsafə" siyasəti – Təhlil.* Əldə edildi: https://aqreqator.az/az/siyaset/3431439
**10.** Mod.gov.az. (2021, 1 dekabr). *Vətən müharibəsinin regionda yaratdığı yeni geosiyasi reallıqlar.* Əldə edildi: https://mod.gov.az/az/pre/38565.html
**11.** Бжезинский, З. (1999). *Великая шахматная доска: Господство Америки и его геостратегические императивы.* Москва: Международные отношения, 256 с.
**12.** Дугин, А. (2000). *Основы геополитики. Геополитическое будущее России. Мыслить пространством.* (Изд. 4-е). Москва: АРКТОГЕЯ-центр, 928 с.
**13.** Dzen.ru. (2024, 25 апрель). *Геополитическая ситуация вокруг Азербайджана.* Əldə edildi: https://dzen.ru/a/ZipTUYVZwj8v1GkV
**14.** Казанцев, А. (2008). *"Большая игра" с неизвестными правилами: мировая политика и Центральная Азия.* Москва: МГИМО-Университет; Наследие Евразии.
**15.** Малышева, Д. (2012). *Новая ближневосточная стратегия Турции. Россия и мусульманский мир.* Əldə edildi: https://cyberleninka.ru/article/n/novaya-blizhnevostochnaya-strategiya-turtsii
**16.** Шаклеина, Т. (2002). *Россия и США в новом мировом порядке. Дискуссии в политико-академических сообществах России и США (1991–2002).* Москва: Институт США и Канады РАН, 445 с. Əldə edildi: http://www.obraforum.ru/shakleina/RandUS-intro.pdf
**17.** Шутов, Д. (1999). *Постсоветское пространство.* Москва: Дипломатическая академия МИД России, Институт актуальных международных проблем; Научная книга, 250 с. Əldə edildi: https://rusneb.ru/catalog/000199_000009_000737269/
**18.** Наринский, М., Мальгина, А., & Навона, М. (2005). *Южный фланг СНГ. Центральная Азия – Каспий – Кавказ: возможности и вызовы для России.* 370 с. Əldə edildi: https://s.eruditor.one/file/235135/
**19.** NATO. (2001). *Caucasus and Central Asia. The Eurasian region – towards a more comprehensive EU policy*. Əldə edildi: https://www.nato.int/docu/colloq/2001